# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

# ƏMR

№ 40

**Bakı şəhəri** "8" dekabr 2017 il

*Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2017-ci il 26 aprel tarixli 14 nömrəli Əmrində dəyişiklik edilməsi haqqında*

"Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2017-ci il 26 aprel tarixli 14 nömrəli Əmrinin 1.2-ci bəndində Şuranın üzvləri hissəsində "Ceyhun İsayev - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdir müavini" sözləri "Xalid Balakişiyev - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin Sahibkarlıq sahəsində keçirilən yoxlamaların tənzimlənməsi sektorunun müdiri" sözləri ilə əvəz edilsin.
2. Elektron idarəetmə və informasiya şöbəsi (C.İbrahimov) bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
3. Ümumi şöbə (E.Rzayeva) bu əmrin surətinin Nazirliyin aparatının aidiyyəti şöbələrinə, Dövlət Enerji Nəzarəti idarəsinə və İqtisadiyyat Nazirliyinə çatdırılmasını təmin etsin.
4. Əmrin icrasına nəzarət nazir müavini G.Cavadova həvalə edilsin.

*Əsas: İqtisadiyyat Nazirliyinin 2017-ci il 21 noyabr tarixli İN-X/O-14378/2017 nömrəli məktubu.*

**Nazir** **Pərviz Şahbazov**